# QENDER VƏ İNKİŞAF

Bu bölmə «Qender rolları və tələbatları» bölməsində öyrənilənlərə əsaslanır və bütövlükdə qender və inkişafın dərk etmə strukturunu təşkil edən digər konsepsiyaları təmsil edir.
Hərçənd bu bölmə üzrə məşğələlərə kifayət qədər çox vaxt ayrılmır, bununla belə o, olduqca böyük əhəmiyyət kəsb edir, çünki o, inkişaf və humanitar fəaliyyət prosesində qadınlarla bağlı yanlış təsəvvürlər üzərində qurulan və siyasəti səmərəsiz edən, çox vaxt isə başa düşünülməyən «iştirak» və «səlahiyyətlər» kimi konsepsiyaları əhatə edir.
Bu bölmə üzrə məşğələləri bitirməklə iştirakçılar inkişaf və humanitar yardım prosesində qender perspektivlərini genişləndirmək üçün vacib olan fundamental vərdişlərə yiyələnirlər. Bu fundamental vərdişlər irəliyə hərəkət və ekspertiza, planlaşdırma, proqram və layihələr üçün müxtəlif strukturlar təqdim edəcək sonrakı bölməni öyrənmək üçün vacibdir.

**Yanaşmalar siyasəti**
İlk üç məşğələ inkişaf və humanitar yardım haqqında ümumi mülahizələrə həsr olunur, qadın və kişi probleminə yanaşma siyasətinin strukturunu təqdim edir. Bu dövrdə müxtəlif yolları müəyyən etmək və qavramaq üçün strukturlar açılıb göstərilir ki, onların vasitəsilə rəsmi strukturlar və elmit-istehsalat təşkilatları qadınların inkişafda iştirakı problemini həll etməyə cəhd edirlər. Struktur tarixən təşəkkül tapmış yanaşmaları əks etdirməsinə baxmayaraq, onların bir çoxu müasir inkişaf siyasətində də tətbiq oluna bilər. Bu yanaşmalar çox da mürəkkəb olmadıqlarına görə iştirakçılar onları həddən artıq sadələşdirilmiş kimi qəbul edə bilərlər. Hər bir halda onlar sonra gələn bölmədə dəqiqləşdiriləcək analiz və planlaşdırma ilə tanışlığı təmin edirlər.

## Səlahiyyət və iştirak

Səlahiyyətlərin və iştirakın öyrənilməsinə dair məşğələlər qender və inkişafın başa düşülməsində açar rolunu oynayırlar, «bərabərlik hamı üçündür» anlayışının inkişafa bağlılıqda dərki üçün vacibdir. «Səlahiyyətlər» və «iştirak» terminləri inkişaf və humanitar yardımla məşğul olan strukturların inkişaf haqqında mülahizələrinin ayrılmaz hissəsi olmuş, çox zaman yanlış başa düşülür və istifadə olunurlar.
İnkişaf prosesində iştirak, bir qayda olaraq, adamların qender mənsubiyyətindən, irqindən, yaşından, sinfi aidiyyatından, yaxud həyatlarına təsir göstərən inkişaf və humanitar yardım proqramlarında iş qabiliyyəti səviyyəsindən asılı olmayaraq tam iştirakı deməkdir. Lakin bu konsepsiya çox vaxt təhlükəli vəziyyətə gətirib çıxarır ki, bu zaman adamlar sanki işləyir, eyni zamanda onların fəaliyyəti cüzi qalır, qiymətini almır yaxud ümumiyyətlə etinasızlıqla üzləşir. Bunu hiss etmək qadınlar üçün adi haldır, çünki çox vaxt düşünülür ki, onlar bu vəziyyətlə razılaşacaq və onların fikri nəzərə alınmayacaqdır. Bundan başqa qadınlar o səbəbdən iştirakçı sayıla bilərlər ki onlar qrupun, kənd icmasının və ya təşkilatın tərkibində olsunlar.
Qadınların inkişafda əsl iştirakı o deməkdir ki, qadınlara onların həyatına təsir göstərən məsələlərdə fikir söyləmək və qərar qəbul etmək imkanı verilsin. Bu o deməkdir ki, siyasətin və inkişaf layihələrinin məqsədlərinə təsir göstərmədə qadınların aidiyyatı var və qadınlar layihələrin nəticələrinə qiymət verilməsində müəyyən rol oynayırlar.
1970-ci illərdə işlənib hazırlanmış (və hələ də geniş istifadə olunan) «Qadınlar inkişaf prosesində» yanaşması səlahiyyətsiz iştirak effektini xatırladır. BMT-nin bəyan etdiyi «Qadın onilliyi»nin (1975-1985-ci illər) lap başlanğıcında qadınlara deyirdilər ki, onlar inkişaf prosesindən kənarda qalmalıdırlar. İnkişaf yaxşı getsin deyə, inkişaf prosesində qadınların iştirakı gərək onların layihələrdəki məqsədlərini təmin etsin. Nə üçün planlaşdırma mütəxəssisləri qadınları nəzərə almayıblar və qadın və kişi rolları nədən ibarətdir haqqında qender analizi bu yanaşmanın tərkib hissəsi olmayıb.

Qadınlar məsləhətlər üçün effektiv olaraq cəlb olunmamışlar, bunun nəticəsi qadın layihə çoxluğu olmuş, onlar qadınların işini artırmaqla, onların həyatına və mövcudiyyətinə, demək olar, təsir göstərməmişlər. Problem heç də qadınların iştirakında deyil: əlbəttə, onlar inkişaf prosesində həmişə iştirak ediblər, özü də dünyanın bəzi hissələrində kənd təsərrüfatı istehsalının 80 faizi onların əməyidir. Problem ondadır ki, inkişaf prosesində qadınlarla onların tələbatları, məqsəd və təşəbbüs istiqamətləri barədə heç kəs birbaşa məsləhətlər aparmayıb, və onlar qərar qəbulu prosesindən təcrid olunublar.
«Qadınlar inkitşaf prosesində» yanaşması qərar qəbulu prosesinin inkişafına deyil, başlıca olaraq iş prosesinin inkişafına yönəldiyindən vəziyyət qadınların səlahiyyətsiz olduqlarına gətirib çıxarıb.

**Fövqəladə vəziyyətlərdə inkişaf və humanitar yardım**

Bu yarımfəsil də fövqəladə vəziyyətlərdə humanitar yardım göstərilməsi işində həmin yardımın müvəffəq olmasında «Qender və İnkişaf» təhlilinin aparıcı amil olduğu nəzəri – nöqtədən baxılmasından başlayır. «Qender və İnkişaf» təhlilinin planlaşdırmaya daxil edilməsi və humanitar yardımın həyata keçirilməsi işi onun inkişaf işinə daxil edilməsindən xeyli geridə qalır. Buna bir neçə səbəb var:

- Humanitar yardım göstərilməsi işi ilə inkişaf işi arasında başlıca olaraq onların iş stilinə, görüləsi işlərin miqyasına, qərarların qəbul olunmasının və planlaşdırmaya təsirinin sürətinə görə yanlış olaraq ikili (bölünən) yanaşma mövcuddur. Bu çox vaxt onu göstərir ki, humanitar yardım proqramları yuxarıdan aşağıya planlaşdırılır və icra olunurlar.
- Humanitar yardım göstərilməsi işi əksərən material-texniki məsələlərin həlli ilə bağlı olur: məsələn, neçə ton taxıl lazımdır, neçə təyyarə (avtomaşın) barja tələb olunur, nə qədər adam mənzillə, su, qida ilə, səhiyyə və kanalizasiya xidməti ilə təmin olunmalıdır. Bu o, deməkdir ki, bəlaya düçar olmuş insanların sosial və mədəni məsələlərinin kompleks idarə olunması sahəsində kişilərin, sosial analizə qətiyyən hazır olmayan mühəndis və texniki heyətin (çox vaxt qısa müddətə işə götürülürlər) dominantlığı tendensiyası hökm sürür.
- Humanitar yardımın sürətlə çatdırılmasına üstünlük verilməsi çox vaxt insanların tələbatlarını lazımınca öyrənməyə imkan vermir, yardımın qender aspektlərini nəzərdən qaçırır, nəticədə yardım tələbatlara uyğun gəlmir və effektsiz olur. Fövqəladə vəziyyətlərin qurbanları olan qaçqın və məcburi köçkünlərin əksəriyyətini qadınlar və uşaqlar təşkil eməsinə baxmayaraq, tələbatların öyrənilməsi və qiymətləndirilməsi diskussiyalarında qadınlar daha çox maneələrlə üzləşir, fövqəladə vəziyyətlər üçün siyasətin planlaşqdırılması və müəyyən edilməsi prosesinə nadir hallarda cəlb olunurlar.

**Qender və fövqəladə vəziyyətlər: bəzi hakim məqamlar**

1. Münaqişələr və fəlakətlər nəticəsində məcburi köçkünlərə çevrilmiş adamların təqribən 85 faizini qadınlar və uşaqlar təşkil edir. Kişilərin aclıqla mübarizə aparmaq və iş axtarmaq üçün ailələrini qoyub getdikləri bir vaxtda, öz ailəsinin məsuliyyətini təklikdə daşıyan qadınların sayı kəskin surətdə artır. Qaçqın və köçkünlərin kompakt şəkildə məskunlaşdığı məntəqələrdə ailələrin 80-90 faizinə qadınlar başçılıq edir. Qohumlardan təcrid olunmuş, kənd və icma əlaqələrindən və yardımından, taxıl və ərzaq ehtiyatlarından məhrum olmuş qadınlar, ailə başçısı kimi, uşaqların, qocaların, xəstələrin və əlillərin həyatı üzərində məsuliyyəti təklikdə üzərlərinə götürürlər.
2. Ümumiyyətlə qadınlar istər şəhər, istərsə də kənd icmalarında qərar qəbulu proseslərindən xaric ediliblər. Qaçqın-qadınlar qaçqın düşərgələrinə yaxud

məskənlərinə gəldikdə, bir qayda olaraq onlar və onların həyatı barədə çox az şey məlum olur, və, çox güman ki, yardım göstərən humanitar agentliklər bu yardımı hansı üsulla çatdıracaqları barədə onlarla məsləhətləşməyəcəklər.

Aşağıdakılar həlledici ola bilər:

- Qadınlarla bilavasitə məsləhətləşmək və onları planlaşdırma prosesinə cəlb etmək;
- Qadınların ərzaq, su və yanacaq bölgüsündə rolunu müəyyən etmək və bu prinsipə uyğun işi təşkil etmək;
- Əməyin qender bölgüsü haqqında məlumat toplamaq fövqəladə vəziyyət zamanı bunda dəyişikliyin olub-olmamasını və yəqin etmək;
- Qadınların təşkilatçılıq və liderlik rolunu öyrənmək və bu informasiya üzərində işi qurmaq;
- Qadınların praktiki tələbatlarının ödənilməsi eyni zamanda onların strateci tələbatlarının ödənilməsinə gətirən yollar nəzərdən keçirilsin;
- Fövqəladə vəziyyətdə qadınların məhsuldar rolunun dəyişib-dəyişmədiyini aydınlaşdırmaq;
- Elə yollar axtarmaq ki, onların köməyi ilə fövqəladə vəziyyətdə qadınların statusunun və rolunun dəyişməsi qadınların cəmiyyətdə yerinin möhkəmləndirilməsini sürətləndirsin;
- Qadınların zorakılıqdan qorunması, hüquqlarının qanuniləşdirilməsi, uşaqlara qulluq edilməsində yardım göstərilməsi və s. kimi praktiki tələbatlarını müəyyən etmək.

3. Qadınlar həm də sosial qrupların yaradılmasında əsas rol oynayırlar. Vacibdir ki, qurban rolu oynamaqla qadınlar alçaldılmasınlar: həm qadınların, həm də kişilərin gücü və bacarığı təqdir edilməli və möhkəmləndimrilməlidir.
4. Qender aspektləri istənilən fövqəladə vəziyyətdə vacibdirlər. Onları nəzərə almaq üçün fövqəladə vəziyyətdə yardım göstərən bütün heyət gərək qender problemlərini başa düşsün və müvafiq təlim keçmiş olsun; qadınlarla bilavasitə məsləhətləşmək imkanını təmin etmək üçün bütün qiymət verən və yardım göstərən qrupların tərkibində qadınlar kişilərlə bərabər sayda təmsil olunmalıdırlar. Planlara qender məsələlərinin salınmasında və qeydiyyatında kişilər bərabər məsuliyyət daşımalıdırlar.

<u>Baxılmaq və müzakirə etmək üçün təklif olunan suallar:</u>

1. Yanlış təsəvvürlər – 35 dəq.
2. Təsəvvürlər və yanaşmalar – 90 dəq.
3. Səlahiyyət və iştirak – 1 saat.
4. Səlahiyyətlərin yerinə yetirilməsi – 60-90 dəq.
5. Balansın tapılması – 1 saat.
6. İnkişaf və yardım – 45-60 dəq.

## QENDER VƏ İNKİŞAFA DAİR MÜLAHİZƏLƏR: MÜLAHİZƏLƏR CƏDVƏLİ

| A. | B. | C. | Ç. |
|---|---|---|---|
| Keyfiyyətli İnkişaf Layihəsi bütün cəmiyyətə fayda gətirəcəkdir. Beləliklə | Məqsədimiz kasıbların kasıblarına köməklik | Mən razıyam ki, cənubda qadınlar çətin şəraitdə yaşayırlar. Lakin | Qadınlar (bütün cəmiyyətlərdə) kişilərlə ünsiyyətdə |

| | | | |
|---|---|---|---|
| də avtomatik olaraq qadınları da əhatə edəcəkdir. | göstərməkdir. Kasıb qadınlar xüsusi olaraq üstünlüklərə malik deyildirlər, bu səbəbdən də onlara xüsusi kömək göstərilməlidir. | onların mədəniyyətini dəyişmək bizim məqsədimiz deyldir. | danışmaqda çətinlik çəkirlər. Bu səbəbdən onların səslərin eşidilməsi üçün vasitələr hərəkət gətirilməlidir. |
| D.<br>Qadınlar fermada əsas işi görürlər. Bü səbəbdən hər bir kənd təsərrüfatı laiyhəsinin müvəffəqiyyəti üçün qadınlar onun həyata keçirilməsinə cəlb olunmalıdır. | E.<br>Qadınlar üçün bütün sxemlərdə bir sıra gəlirli maddələr daxil olmalıdır. Burada məqsəd bu cür sxemlərin özünümaliyyə əsasları ilə işləməsidir. | Ə.<br>Əsl inkişaf qadınlar əhəmiyyətli seçim etmək imkanı verməklə həyatlarının dəyişməsinə gətirib çıxaracaqdır. | F.<br>Şimal dövlətlərin QHT-ın Bərabər İmkanlar siyasəti və təcrübəsi düzgün istiqamətləndiril məlidir ki, cənub ölkələrdə həyata keçirilməsi dəstəklənən layihələrin lazımi qaydada idarə olunmasını təmin etsin. |
| G.<br>Vəziyyət mürəkkəb olduqda fəaliyyəti dayandırıb qender məsələləri haqqında fikirləşmək üçün vaxt qalmır. | Ğ.<br>Cəmiyyət milli azadlıq və ya sinfi mübarizəyə cəlb olunduqda, bu həm kişilər, həm də qadınlar üçün üstünlük təşkil edən amil olmalıdır. Qadınların spesifik tələbatları üzərində cəmləşdirilmə dağıdıcı xarakter daşıyır və aranı qızışdırır. | H.<br>Arvad və analar kimi qadınlar ailənin sağlamlığına və rifahına görə cavabdehdir. Bu səbəbdən biz onlara kömək etməliyik ki, bütün ailəyə kömək etmiş olaq. | X.<br>İnkişafın hər bir aspektinin qadın və kişilərə təsiri müxtəlif olacaqdır. Bu səbəbdən biz onların hər birini qadın və kişilərə fərqli təsiri baxımından öyrənməliyik. |
| I.<br>Bütün mədəniyyətlərə görə qadınlar kişilərə tabedirlər. Məqsəd həmin qeyri-bərabərliyi və tabeçiliyi aradan qaldırmaqdan | İ.<br>Qadınlar daha çox savadlı olduqda onlar iqtisadi baxımdan müstəqil olmaq üçün kişilərlə daha | J.<br>Ən əhəmiyyətlisi yalnız qadınlara deyil ən çox ehtiyacda olan bütün insanlara köməklik | |

| | | | |
|---|---|---|---|
| ibarətdir. | səmərəli yarışa bilərlər. | göstərməkdir. | |

**QADINLARIN İNKİŞAFA CƏLB OLUNMASI ÜÇÜN SİYASİ ÜSULLAR**

| | Sosial müdafiə | **Anti – Yoxsulluq** | **Səmərəlilik** | **Bərabərlik** | **Hüquq və İmkanların Genişləndirilməsi** |
|---|---|---|---|---|---|
| **Problemlərin səbəbləri** | Nəzarətdən kənarda olan hall və hadisələr. | Həyat səviyyəsinin aşağı olmasına gətirib çıxaran resurs çatışmazlığı. | İstehsalatda qadınların həlledici rolunun tanınması və qadınların cəlb olunması sahəsində inkişafı planlaşdıranların uğursuzluğu. | Patriarxat, qadınların kişilər tərəfindən istismarı, tabe edilməsi, əzilməsi. | Qadınların yalnız kişilər tərəfindən tabe edilməsi deyil, həmçinin müstəmləkəçiliyin və neomüstəmləkəçiliyin əzilməsi aspekti kimi baxılması |
| **Vəzifə və ya məqsədlər** | Qadınların cəmiyyətdə oynadıqları rollardan ən əhəmiyyətlisi olan analığın dəstəklənməsi. Əzabların azaldılması. | Kasıb qadınlara produktiv fəaliyyəti artırmaq imkanının verilməsi üçün istehsalatın artırılması. | İnkişafın daha da səmərəli olmasının zəmanəti. «Milləti yedizdirin». | Qadınların bərabər inkişaf hüquqlarının təmin edilməsi məqsədilə qenderin inkişaf proseslərinə daxil edilməsinə nail olmaq. | Qadınlarda özünə inam hisslərinin aratırılması vasitəsilə onların hüquq və imkanlarının genişləndirilməsi. Yeni siyasi, iqtisadi və sosial strukturların yaradılması. İstismar strukturlarının dəyişdirilməsi / ləğv edilməsi. |
| **Xidmətlər Proqramları** | Qadınlara kömək Proqramları. Ailənin planlaşdırılması. Qidalanma (ana qayğısı vasitəsilə ailənin, xüsusilə də uşaqların, | Qadınların texniki vədişlərə yiyələnməsi. Ən adi tələbatın (praktik qender tələbataları) ödənilməsi üçün gəlirin əldə edilməsi məqsədilə məhdud | Sosial xidmətlər baxımından praktik qender tələbatlarının ödənilməsinə yönəldilmiş Proqramlar. Qadınların üç rollarının hər birinə əsaslanmaq. | Strateci Qender tələbatı baxımından və üç tərəfli rolu nəzərə alaraq strukturların islahatlarını təşkil etmək. | Strateci Qender tələbatı baxımından üç tərəfli rolu nəzərə alan Proqramlar – əzilməyə qarşı mübarizə aparmaq məqsədilə praktik qender tələbatları ətrafında daimi artan səfərbərlik |

| | | | | | |
|---|---|---|---|---|---|
| | sağlamlığının möhkəmləndirilməsi). Praktik Qender Tələbatının ödənilməsi sahəsində fəaliyyət. | fəaliyyət. | | | vasitəsilə. |
| **Dəyişikliyin növü** | FUNKSÜİONAL DƏYİŞİKLİK (sabit) | FUNKSÜİONAL DƏYİŞİKLİK (sabit) | FUNKSÜİONAL DƏYİŞİKLİK | STRUKTUR DƏYİŞİKLİK (dəyişən) Bərabər hüquq/İmkanlar | STRUKTUR DƏYİŞİKLİK (dəyişən) |
| **Liderlik növü** | Nüfuza güclü inam (əslində patriarxal olan) – yeniləşdirmə ideologiyası əlavə olunmuş kökləri müstəmləkədə olan sosial rifah modelinin qalığı. | Patriarxatı və qadın tabeçiliyini möhkəmləndirən məsləhət-ideoloci dəyərlərin həddindən artıq istehsalı. | Avtoritar / məsləhətçilik. Qadınlar resurs kimi qəbul edilir. | Struktur islahatlarla birlikdə. Bərabərsizliyin azaldılmasına yönəlmiş dövlət təsirinin tədricən azalması. | İmkanların yaradılması, iştirak, həmrəyliyin yaradılması, qorxuya qalib gəlmə (alternativ Kişi / Qadın üzrə tarazlaşdırılmış strukturlar). «Artan». |
| **Xidmətlər növü** | SOSİAL MÜDAFİƏ – qadınları inkişafın xeyirlərini passiv alıcıları kimi qəbul edilməsi. | ANTİ-YOXSULLUQ – inkişaf (qadınların inkişafa inteqrasiyası). Kasıb qadınlar kateqoriya kimi təcrid edilmişlər. Qadınların produktiv rolunun tanınması. | SƏMƏRƏLİLİK – Qadınların cəlb olunmasına əsaslanan iqtisadi sabitlik və tənzimləmə siyasətləri. | BƏRABƏRLİK – islahatlar, azadlıq. Qadınlar inkişafın aktiv iştirakçıları kimi qəbul olunur. | HÜQUQ VƏ İMKANLARIN GENİŞLƏNDİRİLMƏSİ Transformasiya, azadlıq. Əsasən Hökumət və inkişaf agentlikləri tərəfindən dəstəklənmir. Kifayət qədər maliyyələşməyən könüllü təşkilatların nisbi inkişafı. |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Ən yüksək məşürluk dövrü** | 1950-1970, lakin bu vaxta kimi geniş tətbiq edilir. | 1970-cilər və bundan sonrakı illər bu vaxta kimi məhdud şəkildə məşurdur. | 1980-cilərin sonu – hal hazırda ən məşur üsuldur. (ODA-USAID) | 1975-1985 – Qadın Onilliyi çərçivəsində qəbul olunması cəhdləri. | 1975-ci və sonrakı illər, 1980-ci illərdə daha da sürətlənmişdir. Bu vaxta kimi məhdud şəkildə məşurdur. |

Qender və inkişafa dair mülahizələr: Kvadratlar üzrə təsnifələşdirmə

Xahiş olunur ki, mülahizələri diqqətlə oxuyub, onlarla nə qədər razı olub-olmadığınızı qeyd edəsiniz.

Bundan sonra onları yeddi səviyyə üzrə ardıcıl yığın. Birinci səviyyə – tamamilə razıyam, sonuncu səviyyə 7 – tamamilə razı deyiləm. Onları «romb» fomasına uyğun təsnifləşdirin.

1. Tamamilə razıyam: 1-ci kart
2. Orta səviyyədə razıyam: 2-ci kart
3. Demək olar ki, razıyam: 3-cü kart
4. Nə razıyam, nə də razı deyiləm: 4-cü kart
5. Demək olar ki, razı deyiləm: 3-cü kart
6. Orta səviyyədə razı deyiləm: 2-ci kart
7. Tamamilə razı deyiləm: 1-ci kart



Kartlar A hərfindən C hərfinə kimi nişanlanmışdır. Xahiş olunur ki, aşağıda verilmiş kvadratlarda müvafiq hərfləri yazın. Hər kvadrata yalnız bir hərf yazıla bilər.

<u>RAZIYAM</u>

RAZI  DEYİLƏM